**Abdulov Ə.** Ürəklərdə yaşayanlar // Respublika. - 2024. - 10 sentyabr. - **№ 196**. - S. 9.

Vətən müharibəsində qəhrəmanlıq göstərərək döyüşlərdə şəhid olan İmişlinin Çaxırlı kənd sakini Xəmmədov Əmral Zaur oğlunun, Bəhrəmtəpə qəsəbə sa kini Kamranlı Xalid Kazım oğlunun və Göbəktala kənd sakini Hüseynov Nu rlan Madər oğlunun şəhidlik zirvəsinə ucalmasından iki il ötür. Qəhrəman ş əhidlərimizin ikinci ildönümləri mərasimində iştirak edən İmişli Rayon İcra Hakimiyyətinin başçısı Elçin Rzayev, aparatın məsul işçiləri, YAP İmişli Rayon Təşkilatının sədri Səfa Ağayev, rayon prokuroru Valeh S əmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayo n şöbəsinin rəisi Mətləb Murğuzov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidlərimizin ailə üzvləri, kənd sakinləri on ların məzarını ziyarət edərək tər gül-çiçək dəstələri düzdülər.

Xəmmədov Əmral Zaur oğlu 2 oktyabr 2001-ci ildə İmişli rayonunun Çaxırlı kəndində anadan olub. Vətən müharibəsi zamanı Xüsusi Təyinatlı Dəstələrin əsgəri olaraq Murovdağ və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə döyüşüb. İgid döyüşçü Ha drut uğrunda gedən döyüş zamanı qəhrəmancasına şəhid olub. Çaxırlı kəndində dəfn olunub. Azərbaycan Prezidenti İlham Əliyevin müvafi q Sərəncamına əsasən Xəmmədov Əmral Zaur oğlu ölümündən sonra “Vətən uğrunda”, “Cəsur döyüşçü”, Xocavəndin azad olunmasına görə və Kəlbəcərin azad olunmasına görə medalları ilə təltif edilmişdir. Xalid Kazım oğlu Kamranlı 1999-cu il sentyabrın 23-də İmişli rayonunun Bəhrəmtəpə qəsəbəsində anadan olub. Vətən müharibəsin də Talış qəsəbəsinin azadlığı uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nüm unəsinə çevrilərək şəhid olmuşdur. İmişlinin Bəhrəmtəpə qəsəbəsində dəfn olunub. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Kamranlı Xalid Kazım oğlu ölümündən sonra “Vətən uğrunda” və “Laçının azad olunmasına görə” medalları ilə təltif edil ib.

Nurlan Madər oğlu Hüseynov 1992-ci ildə İmişli rayonunun Göbəktala kəndində dünyaya gəlib. O, həqiqi hərbi xidmətdə olarkən Xüsusi Təyinatlı Qüvvələr tərəfindən seçilib. Nurlan 2010-cu ildən Azərbaycanın elit hərbçilərindən biri olaraq Vətən keşiyində dayanır dı. Qəhrəmanımızın ilk döyüş yolu Murov yüksəkliyində olub,

bir çox erməni postlarının azad edilməsində şücaət göstərib. Cəbrayıl, Zəngil an, Suqovuşan Füzuli istiqamətlərində döyüş tapşırıqlarını da uğurla yerinə y etirib.
Hadrut istiqamətində gedən döyüşlərdə Nurlan və qurupu düşmən tərəfinə sız ma tapşırığını yerinə yetirib, ermənilərin BMP-sini qənimət olaraq götürüblər. Yenidən həmin BMP
ilə düşmənə qarşı hücuma keçərkən ermənilər tərəfindən atılan raketlə BMP vurulub Nurlan Hüseynov şəhidlik zirvəsinə ucalıb. İmişli rayonunun Göbəkt ala kəndində dəfn olunub. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamın a əsasən gizir Hüseynov Nurlan Madər oğlu ölümündən sonra “Vətən uğrun da”medalı ilə təltif edilib.

Şəhidlərimizin ailə üzvləri və yaxınları şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edərək ölkə Prezidenti Silahlı Qüvvələrin Ali baş Komandanı İlham Əliyevə, Birinci vitse-
prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.